# Yeni reallıqlar Avrasiyanın əksər yollarının Bakıdan keçməsinə imkan yaradır

## *Bu, həm müstəqim, həm də məcazi mənada belədir*

**“Beynəlxalq ictimaiyyətin Azərbaycana marağı gündən-günə artır”, “Ölkəmizlə əməkdaşlığı genişləndirməyə çalışan dövlətlər Bakıya rəsmi nümayəndə göndərməkdə davam edirlər” kimi xəbər başlıqlarını artıq hər gün eşidir və ya oxuyuruq. Azərbaycan 44 günlük müharibədən, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Minsk qrupunun 30 ildə yoluna qoya bilmədiyi münaqişəni həll edərək ərazilərimizin bərpasına nail olduqdan sonra, sözün həqiqi mənasında, dünya ictimaiyyətinin diqqət mərkəzinə çevrilib.**



Bu, öz yerində. İndi isə sərlövhəyə çıxartdığımız “Avrasiyanın əksər yollarının Bakıdan keçməsi” barədə arqumentin təsdiqini göstərən həftəlik faktlara nəzər salaq. Daha doğrusu “president.az” saytından götürdüyümüz bəzi məlumatların sərlövhəsini təqdim edək: “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib”. “İlham Əliyev martın 31-də ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib”.

**(ardı 5-ci səhifədə)**

# Yeni reallıqlar Avrasiyanın əksər yollarının Bakıdan keçməsinə imkan yaradır




> ***Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır... Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

**(əvvəli 1-ci səhifədə)**

“İlham Əliyev aprelin 2-də İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib”. “İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib”. “İlham Əliyev aprelin 4-də İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktorunu qəbul edib”. Və nəhayət, “İlham Əliyev aprelin 5-də İsrail–Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, turizm naziri Yoal Razvozovu qəbul edib”.

Bundan başqa, geridə qalan bir həftədə ABŞ, Rusiya, Çin, Türkiyə, İran kimi böyük dövlətlər başda olmaqla, ondan çox ölkənin dövlət və ya hökumət başçıları Prezident İlham Əliyevə məktub göndərib və ya zəng ediblər. Biz bu faktları dövlətimizin qüdrətinə, liderimizin şəxsi nüfuzuna, ölkəmizin reytinqinə və xalqımızın sülhsevərliyinə, humanizminə verilən beynəlxalq qiymət kimi qəbul edirik. Ancaq onu da əlavə edirik ki, bu faktların arası kəsimədən artmasının əsas səbəblərindən biri də rəsmi Bakının Cənubi Qafqazda yaratdığı yeni reallıqlardır.

Yeri gəlmişkən, son günlər Ermənistan mətbuatında ( təəssüf ki, başqa bir ölkənin mətbuatında da belə ifadə işlədilmişdir) “Cənubi Qafqazda yaranmış yeni reallıqlar” ifadəsi bir neçə dəfə işlədilib. Türkiyəli həmkarlarımız isə həmin ifadəyə dərhal düzəliş veriblər: “Söhbət Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlardan gedir”.

Elə Prezident İlham Əliyev də son il yarımdakı bütün çıxış, müsahibə və müraciətlərində “Azərbaycanın yaratdığı yeni reallıqlar” ifadəsini hamının diqqətinə çatdırır. Dövlət başçımız bu ilin yanvarında yerli televiziyalara verdiyi müsahibəsində xatırladırdı ki, müharibənin başa çatmasından bir il keçəndən sonra beynəlxalq birliyin reaksiyası məni qane edir: “Lakin deməliyəm ki, bu, çox cəhətdən bizim fəaliyyətimiz nəticəsində baş verib. Ona görə ki, müharibə qurtarandan sonra, elə ertəsi gün mənim tapşırığımla biz işə başladıq ki, müharibənin nəticələri bütün beynəlxalq birlik tərəfindən qəbul edilsin. Yəni, biz, belə deyək, bircə gün də həm ərazilərin bərpası baxımından, həm də artıq dediyim kimi, yüzlərlə kilometrlik sərhədin qaydaya salınması, beynəlxalq birliyin bunu qəbul etməsi baxımından nail olduğumuz işləri dayandırmamışıq. Bu iş tədricən gedib, lakin hər halda biz buna nail olmuşuq”.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin müharibə başa çatandan sonra verdikləri ilk bəyanatlarını yada salan Prezident deyirdi ki, onlar yeni reallıqlardan tamamilə uzaq idi: “Lakin sonradan, onların bəyanatlarına baxsaq indi artıq həm 10 noyabr tarixli üçtərəfli Bəyanata, həm də başqa sənədlərə istinadlar görərik. Yəni, reallıq artıq üstünlük təşkil edir. Bir də ki, bilirsiniz, Azərbaycan artıq o ölkə deyil ki, onun mənafelərinə etinasızlıq göstərilsin. Əlbəttə, biz heç vaxt özümüzü şişirtməmişik və şişirtməli deyilik, lakin lazımınca qiymətləndirməmək də gərək deyil”.

Dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallıqları qəbul etməsinin əsas səbəblərindən biri də işğaldan azad edilmiş ərazilərə Prezidentin tapşırığı əsasında, həm də dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin səfərlərinin təşkil edilməsi idi. Diplomatların hamısı, sözün həqiqi mənasında, şokda idi. Ona görə ki, onlar vandalizmin və barbarlığın miqyasını bilmirdilər. Nəticədə biz ermənilərin bütün ideoloji konsepsiyasını tamamilə alt-üst edirdik ki, guya, onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Yəni İlham Əliyev müharibə başa çatandan sonra dünyaya əvvəlcə Ermənistan reallıqlarının, qonşu ölkənin ərazisini xarabalığa çevirmiş erməni “mədəniyyətinin” çatdırılmasına nail olmuşdu. Sonra isə Azərbaycan reallıqları təqdim edildi və bütün dünya bu iki Cənubi Qafqazın bu iki ölkəsinin reallıqlarına şahid oldu.

Ekspertlər yazırlar ki, öz torpaqlarını işğaldan azad edən Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar formalaşdırması regionun bütün ölkələrinin maraqlarına cavab verir. Bu reallıqlar Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş hüquqlarını bərpa etməsi, torpaqlarımızın işğaldan azad olunması, Ermənistanın işğal siyasətinə son qoyulmasıdır. Bundan başqa, tarixi qələbəmiz Cənubi Qafqaz və Xəzər dənizi hövzəsi regionlarında yeni iqtisadi və siyasi əməkdaşlığın əsasını qoydu, bölgə ölkələrinin qarşısında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açdı. Azərbaycan, Türkiyə və İran dövlətlərinin son addımları məhz belə deməyə əsas verir.

Regionun müxtəlif ölkələrindən gələn məlumatlarda etiraf olunur ki, Azərbaycan Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində iqtisadi və siyasi sabitliyin dayağı kimi qəbul edilməlidir. Bu reallıqlar fonunda rəsmi Bakının və strateji tərəfdaşları ilə birgə yürütdüyü siyasət Azərbaycanın geosiyasi aktor kimi çəkisini daha da artırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq, Qarabağda başlanılan bərpa – quruculuq işləri intensiv şəkildə həyata keçirilir.

Bu məqamda xatırladaq ki, 2020-ci ilin payızından sonrakı uğurlarımız barədə danışarkən həmin il imzalanmış 10 noyabr Bəyanatının xüsusi əhəmiyyətini vurğulamaq lazımdır. Bu sənəd nəinki regionda sülhün və təhlükəsizliyin təminatıdır, həm də beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünə heç vaxt şübhə etməməsinin parlaq təzahürüdür. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan regionda sülhün və təhlükəsizliyin təminatçısı olmaqla, ümumilikdə, Qafqazda regional güc mərkəzinə çevrilmişdir. Ona görə də keçmiş işğalçı, indiki məğlub Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan, sülh sazişinə razılaşmaqdan başqa heç bir yolu qalmamışdır.

Sonda bir daha xatırladaq ki, bu gün Avrasiyanın yerdə və göydə olan əksər yollarının Bakıdan keçməsi, Azərbaycanda kəsişməsi günün reallığıdır. Bu reallığı isə Prezidentimizin siyasi müdrikliyi, ordumuzun rəşadəti, əsgər və zabitlərimizin peşəkarlığı, xalq-iqtidar birliyi, milli həmrəyliyimiz yaratmışdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 6 aprel.- S.1:5.